30 ilə yaxın davam edən münaqişənin siyasi yolla həlli prosesi uzandıqca, onun hərbi-siyasi yolla həllinin ehtimalı vahidə yaxınlaşırdı. Yaranmış “nə hərb, nə sülh” vəziyyətindən düşmən tərəf eyforiyaya qapılır, bizi zəif sanır, mövcud status-kvonu saxlamaqla yeni ərazi iddialarına düşərək tarixində də, ruhunda da təslimiyyət olmayan bir millətin hissləri ilə oynayırdı. Tarixin dərslərindən ibrət almayan, ötən əsrin 20-ci illərinə qədər icma, tayfa, etnik toplum şəklində yaşamağa adət etmiş, xisləti terrorçuluq olan ermənilərin bu xəyallara uyması da çox acı sonluqla nəticələndi. On illərlə işğalın çətinliklərini, əzablarını yaşayaraq mənəvi və fiziki iztirablar keçirən xalqın 44 gündə, qısa müddətdə QALİB XALQA çevriləcəyini ağlına belə gətirməyən düşmən Azərbaycanı istədiyi kimi deyil, olduğu kimi görməyə və qəbul etməyə məcbur edildi.

Belə mühüm tarixi missiyanın reallaşacağı dövrə qədərki müddətdə qələbəni təmin edəcək fundamental əsaslar yaradıldı, iqtisadi, siyasi, diplomatik və hərbi zəmin formalaşdırıldı. Ulu Öndərin vəsiyyətinə əməl etmək üçün ölkə başçısı irrasionallıqdan uzaq prinsipiallıq və siyasi iradə nümayiş etdirdi. Düşmənin yalan bəyanatları, sərsəm iddiaları və niyyətləri barədə ən yüksək tribunalardan istifadə edərək beynəlxalq ictimaiyyəti, təşkilatları, ATƏT-ə üzv dövlətləri dəfələrlə xəbərdar etdi. Həmin dövrə detallara varmaqla yenidən nəzər salsaq, görərik ki, müharibənin bütün məsuliyyəti qarşı tərəfin üzərindədir.

* * *




# Əsrlərə bərabər 44 gün

## Xalqımızın çoxəsrlik tarixində qısa müddətdə buna oxşar qələbə və tam qələbə olmayıb

Hər birimizin haqlı olaraq gücü, qüdrəti, yenilməzliyi və əsl müstəqilliyi ilə fəxr etdiyimiz müasir Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Müstəqilliyinin bərpası əsrin üçdə birindən də az olan zaman kəsimində nail olduğu möhtəşəm uğurlar, siyasi-iqtisadi yüksəliş nəticəsində Azərbaycan regionun aparıcı dövləti, qlobal enerji təhlükəsizliyi məsələlərində söz sahibi, kosmik alyansın üzvü, beynəlxalq münasibətlər sistemində özünün konkret və qətiyyətli mövqeyi olan dövlətlərdən biri, beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi tranzit qovşağa çevrilmişdir. Sadaladıqlarımız bugünümüzü xarakterizə edən uğurlarımızın hamısı deyil, bir qismidir. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılan nailiyyətlərin əsası müasir tariximizi məhv olmaqdan yüksəlişə, parçalanmaqdan güclü dövlətçiliyə, tənəzzüldən inkişafa, anarxiyadan sabitliyə doğru xilaskarlıq missiyasını yerinə yetirən Heydər Əliyev tərəfindən qoyulmuşdur.

İşğalın səbəb olduğu çətinliklərə baxmayaraq, ötən illər ərzində Azərbaycanda sabit inkişaf edən, müasir, demokratik və multikultural dövlətin formalaşdırılması üçün mühüm işlər görülmüş, qlobal layihələr reallaşdırılmışdır. İqtisadiyyat sürətlə inkişaf etmiş, ümumi daxili məhsul 3 dəfə artmış, yoxsulluq 49 faizdən 5 faizə enmişdir. Ölkəmiz bir çox beynəlxalq tədbirlərin, qlobal forumların, mədəniyyətlərarası dialoqların keçirildiyi məkan olmaqla, mühüm idman oyunlarına ev sahibliyi etmişdir. Müxtəlif ölkələrdə dini və tarixi abidələrin bərpası ilə bağlı birgə layihələr həyata keçirilmişdir.

Torpaqlarımızın işğal altında olduğu vaxtda Azərbaycanın qarşısında duran ən vacib vəzifələrdən biri ordumuzun qüdrətlənməsi, modernləşməsi, son hərbi texnologiyalara yiyələnməklə döyüş qabiliyyətinin keyfiyyətinin artırılması olsa da, dövlət müstəqilliyinin bərpasından sonrakı iki ildə müharibə vəziyyətində olan Azərbayanda ordu quruculuğu sahəsində, demək olar, heç bir iş görülməmişdi. Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıdışında vahid komandanlığa tabe olan nizami ordu yox idi, ayrı-ayrı silahlı birləşmələr ölkəni düşmən təcavüzündən qoruya bilmirdi. Bütün bunlara diqqəti yönəldən Ulu Öndər 1993-cü ilin oktyabrında andiçmə mərasimində demişdir: “Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir”.

Ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasəti və titanik fəaliyyəti nəticəsində ordu quruculuğu sahəsində ciddi addımlar atılmış, ötən illər ərzində ən müasir silahlar və hərbi texnika ilə təchiz edilmiş nizami ordu yaradılmışdı.

Buna görə də Prezident İlham Əliyev 2003-cü ildə andiçmə mərasimində demişdir: "Ulu Öndər Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görüb. Ölkəmizdə güclü ordu yaradılıb və bu proses davam edəcək. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaq. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır".

Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən tədbirlər sayəsində inkişaf etmiş hərbi sənayesi olan dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirilməklə ordumuzun arsenalına dünya hərb sənayesinin müasir və son texnologiyaları cəlb olundu. Azərbaycan Silahlı Qüvvələrinin modern hərbi gücə çevrilməsinə kömək edən bu texnologiya və texnikalar ölkəmizə öz döyüş imkanlarını əhəmiyyətli dərəcədə yüksəltməyə və müasir standartlar səviyyəsinə çatdırmağa imkan verdi. Bununla da, ordumuz dünyanın 50 ən güclü ordusu sırasında yer aldı.

Ordumuz gücünü, əsgər və zabitlərimizin rəşadətini, istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olduğunu 2016-cı ilin aprel döyüşlərində əyani nümayiş etdirdi. Həmin döyüşlərdən sonra tam əminlik yarandı ki, diplomatiyanın imkanları tükəndikdə, zəruri siyasi şərait yetişdikdə, Azərbaycan öz hərbi gücü ilə ərazi bütövlüyünü bərpa edə bilər.

Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad olunmasını və Günnüt zəfərini Ermənistanın siyasi-hərbi dairələri xüsusi təlaş və narahatlıqla qarşıladılar. Çünki bu hadisələrdən sonra ordumuz cəbhə xəttində strateji üstünlüyü artırdı. Xüsusilə Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət təmin edildi.

Bütün bunlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycanın üstün mövqeyinin təmin olunmasına xidmət edən mühüm uğurlar idi. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan geosiyasi mövqeyindən maksimum bəhrələnməklə yeganə probleminin - torpaqlarımızın bir qisminin Ermənistanın işğalı altında olmasının sülh danışıqları ilə ədalətli həllinə çalışırdı.

**3 oktyabr 2019-cu il.** Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya klubunun XVI illik iclasının plenar sessiyası keçirilib. Sessiyada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın işğalının nəticələrinə diqqət yetirdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən çoxdur yerinə yetirilmədiyini bildirdi. Prezident İlham Əliyev Ermənistanın baş nazirinin "Qarabağ Ermənistanın hissəsidir və nöqtə" bəyanatının yalan olduğunu vurğulayaraq dedi: "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Dağlıq Qarabağ tarixi, mədəni, demoqrafik, geosiyasi və bütün digər mənalarda daim Azərbaycanın olub və ora indi də Azərbaycandır deyilməsi “Valday”da iştirak edənlərə və dünyaya bir diplomatik mesaj idi.

Təəssüflər olsun ki, həmsədrlər də uzun illər idi Azərbaycanın haqqının bərpa olunmasına yardım etmir, sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləsə də, ancaq işğalçının zəbt etdiyi ərazilərdən çıxması üçün heç bir real təzyiq göstərmirdi. Ermənistanın hərbi təcavüz aktına konkret münasibət bildirib, onun mövqeyini pisləməkdənsə, standart cavablar verirdi.

Dağlıq Qarabağla bağlı məsələdə qətnamələrin implementasiyası olmasa da, Prezidentimizin aramsız səylərinin, ardıcıl və çevik siyasi gedişlərinin nəticəsi olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində bizim haqlı mövqeyimizi dəstəkləyən dövlətlərin sayı getdikcə artmaqda idi. Erməni təbliğat maşınının bütün gücü ilə işləməsinə, erməni lobbisinin hökumətlərə, parlamentlərə güclü təsir imkanlarına baxmayaraq, dünyanın münaqişəyə baxışı, bununla bağlı mövqeyi əhəmiyyətli dərəcədə dəyişirdi.

Yeri gəlmişkən, qeyd edək ki, son iki ildə ən çox işlənən ifadə, təbii ki, "Qarabağ Azərbaycandır!" deyimidir. Formaca adi, məzmunca taleyüklü qlobal mahiyyət kəsb edən, uşaqdan böyüyə hamımızın ruhuna hopmuş, duyğusal, mübariz vətənpərvərliklə və qürurla söylədiyimiz, hər birimiz üçün əziz və doğma olan bu kəlamı ilk dəfə "Valday"ın tribunasından dövlətimizin başçısı İlham Əliyev yüksək inam və qətiyyətlə dünyaya, beynəlxalq aləmə bəyan etdi.

**11 oktyabr 2019-cu il.** Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etdi. O, öz çıxışında Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciətinə toxunaraq, ən dağıdıcı, qanlı müharibənin ön və arxa cəbhələrində xalqlarımızın gələcək üçün nümunə olan qəhrəmanlıq və igidliyindən danışdı. Faşizm üzərində ümumi Qələbəmizə Azərbaycanın layiqli töhfələr verdiyini qeyd etdi.

Prezidenti İlham Əliyev bildirdi ki, Ermənistanda əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. Bu barədə Rusiya XİN-in mövqeyi də xatırladılıb. Buna görə də, hesab edirəm ki, özünü demokratik seçilmiş təqdim edən yeni hakimiyyət, ilk növbədə, bu ləkədən, bu rüsvayçılıqdan təmizlənməli və həmin heykəli sökməlidir.

Bu məsələdə də Prezidentimizin inamlı danışması və kəsərli ifadələr işlətməsi saxtakar erməni tarixçilərinin uydurmalarına tutarlı cavab olmaqla erməni baş nazirə tarix dərsi idi.

**14 fevral 2020-ci il.** Almaniya Federativ Respublikasında keçirilən 56-cı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib. Müzakirələrdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan iştirak ediblər.

Bütün çıxışlarında, müsahibələrində şərəfli, ədalətli və mübariz tarixi keçmişimizə müraciət edən cənab Prezident bu dəfə də ənənəyə sadiq qalaraq, münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün hər şeydən əvvəl geriyə qayıtmaq, məsələnin, problemin tarixinə baxmaq lazım olduğunu qeyd etdi. Dağlıq Qarabağın XIX əsrin əvvəllərindən bu günə qədər olan tarixinə dəqiq sənədlərlə ekskurs edən cənab Prezident çıxışının sonunda qeyd etdi ki, beynəlxalq hüquq məsələsinə gəlincə, yenə deməliyəm ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT TŞ-nin Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən qətnamələri hələ də yerinə yetirilməyib. Ona görə də sülh danışıqları nəticəsində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir.

Müzakirələr zamanı Nikol Paşinyan - Bilirsiniz mən Prezident İlham Əliyevdən tarixin çox dərinliklərinə getməməyi xahiş edəcəyəm... Çünki Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın... yox üzr istəyirəm... kəkələyə-kəkələyə deməklə həm səriştəsizliyini, həm də zəkasızlığını sübut etdi.

Konfransda Prezident İlham Əliyev Qarabağ haqqında faktları şərh edərkən həqiqi sənədlərə istinad edir, hazırda yaranmış vəziyyətin tarixi qaynaqlarını açırdı. N.Paşinyan isə heç bir dəlillə əsaslandırılmamış miflərin və ağ yalanın köməyi ilə cavab verməklə, Qarabağ məsələsində həm səriştəsiz olduğunu, həm də faktları görməzdən gəldiyini göstərirdi. O, bir mövzudan digərinə, müasir dövrdən qədim vaxtlara amplituda sıçrayışları etməklə heç nəyə nail olmadı və ciddi heç nə söyləyə bilmədi. Müzakirələr konstruktiv və məsələnin ədalətli dialoq yolu ilə həllinə tərəfdar olan İlham Əliyevin açıq-aşkar diplomatik qələbəsi ilə başa çatdı.

Ağıl, arqument, siyasi təcrübə, natiqlik istedadı, həm də sadəcə psixoloji dayanıqlılıq və mənəvi səbat mübarizəsində kimin güclü olduğunu siyasətçilər, ekspertlər və şərhçilər də aydın gördülər.

Qeyd edək ki, əvvəllər beynəlxalq gündəlikdə duran qlobal təhlükəsizlik məsələlərinin müzakirə olunduğu vacib platforma olan Münxen Təhlükəsizlik Konfransının Təşkilat Komitəsi tərəfindən Azərbaycan dövlətinin rəhbərliyi ilə Ermənistan dövlətinin rəhbərliyi arasında Qarabağ münaqişəsinin müzakirəsi məsələsi irəli sürülsə də, Ermənistan tərəfi bu təklifdən yayınırdı.

N.Paşinyan baş nazir vəzifəsinə gələndən sonra Azərbaycanın danışıqlarda üstün mövqeyini, ölkəsinin isə mövqelərinin zəif olduğunu anlayaraq danışıqlardan imtinaya cəhd etdi və münaqişənin həlli ilə bağlı mövcud danışıqlar prosesinin ziddinə bəyanatlar verməyə başladı. Həmçinin danışıqların əngəllənməsi və iflic halına salınması üçün bütün cəhdlər edilirdi. Əsas hədəf isə danışıqlar prosesinin formatının dəyişdirilməsi, Dağlıq Qarabağdakı separatçı rejimin müzakirələrə cəlb edilməsi təşəbbüsü idi. Lakin prosesin formatının dəyişdirilməsi ilə bağlı Ermənistan rəhbərliyinin tələbləri ilk gündən beynəlxalq dəstək qazanmadı. ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələr, Avropa İttifaqı rəsmiləri də formatın dəyişdirilməsinə etiraz etdilər.

Həmin dövrlərdə Azərbaycan Prezidenti İlham Əliyev və N.Paşinyan arasında Vyanada keçirilən görüşdən sonra yersiz tələb və iddialara son qoyuldu və formatın əvvəlki kimi saxlanılması Azərbaycanın danışıqlardakı diplomatik üstünlüyü oldu.

Azərbaycanın güclü dövlətə çevrilməsi, beynəlxalq nüfuzunun yüksəlməsi Ermənistanın və dünya ermənilərinin yalan və saxta iddialarına ciddi zərbə vurmaqla, əzəli Azərbaycan torpaqları olan ərazilərin ilhaqına beynəlxalq dəstək qazanmaq üçün apardıqları təbliğatı iflasa uğratmaqda idi və nəticədə psevdoiddialar əvvəlki kimi beynəlxalq dəstək qazanmırdı.

Beynəlxalq hüququn norma və prinsiplərini, Azərbaycan qanunlarını kobud şəkildə pozaraq Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edib separatçı rejimin nümayəndələri ilə görüşmək əvvəlcədən məqsədyönlü və planlaşdırılmış şəkildə həyata keçirilirdi. Azərbaycan dövlətinin uğurlu diplomatiyası ilə onun da qarşısı alındı və nəticədə Ermənistan, dünya erməniləri, erməni təəssübkeşləri növbəti diplomatik zərbə aldı.

**12 iyul 2020-ci il.** Ermənistan Azərbaycanın dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Günorta saatlarında qəflətən hərbi postumuza açılan artilleriya atəşi nəticəsində hərbçilərimiz həlak oldu və yaralandı. İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı qeyd etmişdir ki, düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik.

Həmin günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışının əsas müddəaları xarici KİV-də geniş işıqlandırıldı. Həmçinin bu istiqamətdə informasiyalar, analitik yazılar, ekspert rəyləri yayıldı. Məlumatlarda əsasən vurğulanırdı ki, Azərbaycanın beynəlxalq arenada sürətlə yüksələn nüfuzundan narahatlıq keçirən Ermənistan rəhbərliyi ölkəsindəki sosial-iqtisadi böhrandan ictimaiyyətin diqqətini yayındırmaq üçün bu çirkin və məkrli siyasətə əl atır. Eyni zamanda, qeyd olunurdu ki, sərhəddə törətdiyi təxribat Ermənistanın münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmamasının növbəti sübutudur.

Cəbhədə törədilən təxribatla əlaqədar Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində etdiyi paylaşımda deyilir: "Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq! Bizim torpağımız, Vətən uğrunda mübarizəmiz müqəddəsdir! Bizim işimiz haqq işidir və Allah bizimlədir! Düşmənə layiqli cavab verildi və bu, hər zaman belə olacaqdır!".

Ermənistanın hərbi avantüra törətməkdə məqsədi üzv olduğu hərbi-siyasi təşkilatları Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etmək, törətdiyi işğal və təcavüzün məsuliyyətindən boyun qaçırmaq idi.

Ermənistanın cəzasızlığının onu növbəti hərbi təxribatlara həvəsləndirdiyini, hərəkətlərinin isə üzv olduğu beynəlxalq təşkilatların hüquqi sənədləri ilə ziddiyyət təşkil etdiyini qeyd edən Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti barədə bildirmişdir ki, həmsədrlər təkcə tərəflər arasında məlumat mübadiləsi aparmaqla məşğul olmamalı, danışıqlar prosesinin fundamental əsaslarının icrasını təmin etməlidirlər.

Qeyd etdiyimiz kimi, bu mövzuda beynəlxalq ekspert rəyləri də Azərbaycanın haqlı və ədalətli mövqeyini təsdiq edirdi.

Azərbaycanın dövlət rəhbərliyi Qarabağ münaqişəsinin həlli istiqamətində həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində daim prinsipial və güzəştsiz mövqe tutduğundan ölkəmizdəki siyasi partiyaların əksəriyyəti Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü və dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi son təxribatları ilə əlaqədar milli həmrəylik bəyanatı qəbul etdilər. Bəyanatda qeyd olunurdu ki, Azərbaycanın siyasi partiyaları Prezident, Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, hər cür erməni fitnəsi və təxribatlarının qarşısının alınması istiqamətində həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləyir, onun ətrafında sıx birləşdiyini bəyan edir.

Qoşulmama Hərəkatına üzv dövlətlərin Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə ən yüksək səviyyədə dəstəyi, həmçinin Azərbaycanın bu istiqamətdə göstərdiyi səylərə həmrəylik nümayişi danılmazdır. Bu məqsədlə də iyulun 16-da Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun Ermənistan tərəfindən Azərbaycan-Ermənistan sərhədində törədilən təxribatla bağlı fövqəladə iclası keçirilmişdir. İclasda Qoşulmama Hərəkatına üzv dövlətlərin nümayəndələri Ermənistanın təxribatını pisləmiş, Azərbaycana isə dəstək ifadə etmişlər.

İyulun 12-də bölgədə yaranan gərgin hərbi vəziyyətlə bağlı jurnalistlərin suallarını cavablandıran Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Türkiyə belə bir vaxtda qardaş Azərbaycanı qətiyyən tək qoymayacaq. Qardaş Azərbaycana sona qədər öz dəstəyini verəcək. Qafqaz mücadiləsində olduğu kimi, bu gün də Azərbaycanın, azərbaycanlı qardaşlarımızın yanındayıq, yanında olacağıq", - deyə bildirib.

Bu fikirlərdən sonra hadisələri qabaqlayıb nəyisə şərh etməyə ehtiyac yoxdur.

Qərəzli provokasiya və hərbi-siyasi avantüra ilə təxribat törətməkdə məqsədi üçüncü tərəfləri münaqişəyə cəlb etmək, Azərbaycanın strateji infrastrukturuna zərər vurmaq olan Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə qazandığı uğurlara və gördüyü işlərə kölgə salacağını düşünürdü. Əsas məqsədi isə diqqəti Ermənistan-Azərbaycan münaqişəsindən və Ermənistanda artmaqda olan iqtisadi-sosial problemlərdən yayındırmaq idi. Amma təxribatçı öz məkrli siyasəti ilə qarşıya qoyduğu heç bir məqsədə nail ola bilmirdi.

**24 sentyabr 2020-ci il.** BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxış edən Prezident İlham Əliyev işğal edilmiş ərazilərimizdə Ermənistanın törətdiyi vandallıqdan, qanunsuz məskunlaşmadan, biznes fəaliyyətindən və iyulun 12-də sərhəddəki hərbi təxribatlardan danışdı, regional sülhə və təhlükəsizliyə böyük təhdidlərin olduğunu qeyd etdi. Bildirdi ki, Ermənistana artmaqda olan silah təchizatından ciddi narahatıq. Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi onu yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir. Xüsusi vurğuladı ki, Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanafob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik.

Baş verən hadisələrə nəzər yetirdikdə məlum olur ki, işğal etdiyi ərazilərdə cinayətkar, terrorçu, qondarma rejim yaradan Ermənistanın məqsədi işğala görə məsuliyyətdən yayınmaq, hazırkı status-kvonu qorumaq və işğal edilmiş ərazilərin ilhaqına nail olmaq idi. Buna görə də Ermənistanın baş naziri danışıqlar prosesinin format və mahiyyətini sarsıtmaq üçün "Qarabağ Ermənistandır" kimi sərsəm bəyanatları ilə prosesə ciddi zərbə vururdu. Baş nazirin əsassız bəyanatlarından ruhlanan müdafiə naziri isə eyforiyaya qapılaraq "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırışları edirdi. Bu azmış kimi, ölkəmizi böyük şəhərlərimizə, həyati əhəmiyyətli mülki infrastrukturlara, həmçinin beynəlxalq enerji təhlükəsizliyi təminatçılarından olan və Bakının yaxınlığında yerləşən Səngəçal terminalına zərbə endirməklə hədələyirdilər.

Cənubi Qafqazda yaranan əsas reallıq Azərbaycanın yüksəlişi, Ermənistanın isə daxili ziddiyyətlər burulğanından çıxa bilməməsi idi. Azərbaycan bütün ölkələrlə strateji tərəfdaşlıq səviyyəsində, bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurmuş, aydın, işıqlı və dəqiq yol tutmuşdur. Öz aparıcı mövqeyi ilə bölgənin inkişafına xidmət edən enerji layihələrindən və beynəlxalq tranzit yollardan, bir sözlə, kommunikasiyalardan Ermənistanı kənarda saxlayıb.

Bütün bu reallıqlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin milli maraqları çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə tam zəmin yaratmış oldu.

Prezidentimizin də bütün görüş və çıxışlarında vurğuladığı kimi, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa edilməsi üçün aparılan siyasi məsləhətləşmələr və diplomatik görüşlər nəticə vermirdi.

Diplomatiya yumşaldıcı və həlim mövqe deməkdir. Haqlı deyiblər ki, yumşaqlıq göstərməklə düşməni dost edə bilməzsən, ancaq onun iddiasını artırarsan. Düşmən tərəfin "yeni ərazilər uğrunda yeni müharibəyə" çağırışları bunun əyani təsdiqidir. Bütün bu proseslər diplomatiyanın imkanlarının tükəndiyini təsdiq edirdi. Diplomatik imkanlar fayda vermədikdə, nəticəsiz olduqda, problemin siyasi müstəvidə həlli qeyri-mümkün, hərbi-siyasi, müharibə yolu ilə reallaşması isə qaçılmaz olur.

Ancaq müharibənin öz qanunları var və bu qanunlarda emosiyaya, həyəcana və düşünülməmiş addımlara əsla yer yoxdur.

*(davamı növbəti saylarımızda)*

**H.MUSAYEV,**
**“Respublika”.**

> Son iki ildə ən çox işlənən ifadə, təbii ki, "Qarabağ Azərbaycandır!" deyimidir. Formaca adi, məzmunca taleyüklü qlobal mahiyyət kəsb edən, uşaqdan böyüyə hamımızın ruhuna hopmuş, duyğusal, mübariz vətənpərvərliklə və qürurla söylədiyimiz, hər birimiz üçün əziz və doğma olan bu kəlamı ilk dəfə dövlətimizin başçısı İlham Əliyev yüksək inam və qətiyyətlə "Valday"ın tribunasından dünyaya, beynəlxalq aləmə bəyan etdi.